# Güclü iradə, qətiyyətli mövqe və birgə əməkdaşlığın təntənəsi

*Azərbaycan Prezidenti İlham Əliyev: “...Türkiyənin gücü bizim gücümüzdür. Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəli gedəcəyik... Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir”.*

## İki qardaş ölkənin növbəti zəfəri

Yenicə yola saldığımız ilin son günlərindən biri xalqımızın yaddaşına əlamətdar, tarixi bir gün kimi düşdü. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi nəhəng enerji təhlükəsizliyi layihələrinin sırasına daha biri əlavə olundu. Noyabrın 30-da Türkiyədə, Ədirnənin İpsala qəsəbəsində Avrasiyanın ən böyük infrastruktur layihələrindən biri - “Cənub Qaz Dəhlizi”nin mühüm tərkib hissəsi olan Trans-Anadolu təbii qaz boru xəttinin (TANAP-ın) Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi.

Mərasimdə Türkiyə və Azərbaycanla yanaşı, Gürcüstan, Bosniya və Herseqovina, Makedoniya və Serbiyanın dövlət başçıları və hökumət nümayəndələri iştirak etmişlər.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xəzərin Azərbaycan sektorundan hasil olunan qazın Avropaya çatdırılmasını təmin edən TANAP boru kəmərinin istifadəyə verilməsini Azərbaycan-Türkiyə birgə əməkdaşlığının bariz nümunəsi, hər iki dövlət başçısının qətiyyətli, ardıcıl, düşünülmüş siyasətinin, güclü iradəsinin nəticəsi - tarixi zəfər kimi qiymətləndirərək onun region xalqlarının və ölkələrinin həyatına, iqtisadi inkişafına layiqli töhfələr verəcəyini vurğulamışdır. Dövlət başçısı bildirmişdir ki, TANAP-a gedən yol heç də birdən-birə başlamamışdır. Ona qədər qardaş Türkiyə ilə birgə çox mühüm infrastruktur layihələri uğurla icra edilmişdir. TANAP-ın təməli 2015-ci ildə qoyulsa da, bu yola 2012-ci ildən qədəm qoyulmuşdur: “Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul Anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara aldıq ki, bizə lazım olan bu layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan BP şirkəti bizim tərəfdaşımızdır. Ancaq texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür”.

Azərbaycan Prezidenti bildirmişdir ki, əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı:

“...Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Ceyhan neft boru xəttini istismara verdik”.

İndiyə qədər kəmər vasitəsilə Türkiyə və dünya bazarlarına Azərbaycan və başqa ölkələrin 450 milyon tondan çox nefti nəql olunmuşdur. Bunun böyük hissəsi - 400 milyon tondan çoxunu Azərbaycan nefti təşkil edir. Digər ölkələrin payı aşağıdakı kimidir: 27 milyon ton - Türkmənistan, 12 milyon ton - Qazaxıstan, 7 milyon ton - Rusiya. Boru xətti ixracatçı ölkələr üçün əhəmiyyətli infrastruktur layihəsi olmaqla hazırda da uğurlu fəaliyyət göstərir.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri xəttinin istismara verilməsi TANAP-a daha bir zəmin oldu. 2015-ci il martın 15-də Qarsda inşasına başlanan boru xətti üç il sonra - 2018-ci il iyunun 12-də istifadəyə verildi.

Prezident İlham Əliyevin vurğuladığı kimi, bu layihələrə sadəcə enerji layihələri kimi baxmaq olmaz. Onlar digər layihələrin də reallaşmasına imkan verdi. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı oldu. İki qitəni birləşdirən dəmir yolu ilə Azərbaycan, Orta Asiya ölkələri, Əfqanıstan və Çinin yükləri daşınır. Digər bir layihənin icrası ilə Azərbaycandan Gürcüstana və Türkiyəyə elektrik enerjisi ixrac edilir. “Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı, bunların biri də olmazdı... Bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir”, - deyə dövlət başçısı vurğulayıb.

## Əfsanədən... həqiqətə

Açılış mərasimində çıxış edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirmişdir ki, TANAP Azərbaycandan Avropaya uzanan 3500 km-lik enerji dəhlizinin ən önəmli hissəsidir. Bu kəmər ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçməklə Yunanıstan sərhədinə qədər uzanır. TANAP vasitəsilə 16 milyard kubmetr həcmində Azərbaycan qazının Türkiyə və Avropanın istifadəsinə verilməsi əfsanədən həqiqətə çevrilmişdir. Gələcəkdə bu rəqəmin mərhələlərlə artırılaraq 31 milyard kubmetrə çatdırılacağı nəzərdə tutulur. Başlanğıcda bu həcmin 6 milyardı Türkiyənin, qalanı isə Avropanın istifadəsinə veriləcək.

Ölkə Prezidenti vurğulamışdır ki, bu layihə, hər şeydən əvvəl, Azərbaycanla Türkiyə arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihə istehsalçı, tranzit və istehlakçı ölkələrlə yanaşı, pay sahibinə malik şirkətlər arasında anlaşma və uzlaşmanın mövcudluğu sayəsində uğurla icra olunmuşdur.

“Cənub Qaz Dəhlizi” layihəsinin bel sütununu təşkil edən” (Prezident R.T.Ərdoğan) TANAP vasitəsilə Türkiyə bazarına əlavə olaraq 6 milyard kubmetr təbii qazın göndərilməsi artıq bir reallıqdır. Bu isə bütövlükdə ölkənin mavi yanacağa olan tələbatının 10 faizdən çoxunun Azərbaycan qazı hesabına ödənilməsi deməkdir.

Avropanı Asiya ilə birləşdirən Trans-Anadolu boru xəttini, bütünlükdə Cənub Qaz Dəhlizini bir “həmrəylik, sülh layihəsi” kimi qiymətləndirən Prezident Rəcəb Tayyib Ərdoğan region ölkələrinə, bütün dünya ölkələrinə əməkdaşlıq və tərəfdaşlıq mesajları da göndərdiyini bildirmişdir: “Gəlin enerjini münaqişə vasitəsi əvəzinə, əməkdaşlıq zəmininə çevirək. Diplomatiyadan istifadə etmək imkanları var ikən, bölgəyə yeni qurbanlar verdirəcək yollara əl atmayaq”.

Gözəl niyyətdir, deyilmi?!.

## TANAP: faktlar və rəqəmlərin dili ilə

Trans-Anadolu təbii qaz boru kəməri Avrasiyanın ən böyük enerji layihələrindən olan “Cənub Qaz Dəhlizi”nin dörd seqmentindən (“Şahdəniz-2”, Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri və Trans-Adriatik boru kəməri) ən mühümüdür. Onun vasitəsilə Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” və digər yataqlarından hasil edilən qaz kondensatı Türkiyənin Gürcüstanla sərhədindəki Pofos qəsəbəsinin Türkgözü kəndindən başlayaraq Ədirnə vilayətinin Yunanıstanla sərhədindəki İpsala qəsəbəsinə nəql ediləcəkdir. Kəmər artıq orada dördüncü hissəyə - TAP-a birləşdirilib. Uzunluğu 1850 km-dir (quru ərazidə 1804 km və əlavə olaraq Çanaqqala boğazından keçən 17,5 km-lik iki sualtı xətlə birlikdə).




TANAP-la bağlı Azərbaycanla Türkiyə respublikaları arasında Anlaşma memorandumunun imzalanma tarixi 2011-ci il dekabrın 21-nə təsadüf edir. Layihə üzrə Türkiyə Respublikası və TANAP konsorsiumu arasında “Tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş”, həmçinin Azərbaycanla Türkiyə arasında “Hökumətlərarası Saziş” 26 iyun 2012-ci ildə İstanbulda imzalanıb və hər iki dövlətin müvafiq hüquqi instansiyaları tərəfindən təsdiqlənib. “Şahdəniz-2” yekun investisiya Sazişi isə 2013-cü ilin dekabr ayında Bakıda təşkil olunan mərasimlə yekunlaşdı.

2015-ci il mart ayının 17-də Türkiyə, Azərbaycan və Gürcüstan dövlət başçılarının iştirakı ilə Qarsda rəsmi təməlqoyma mərasimi keçirilib, sonra isə illik ötürücülük qabiliyyəti 16 milyard kubmetrlik boru kəmərinin inşasına başlanılıb.

TANAP-ın səhmdarları bunlardır: “Cənub Qaz Dəhlizi” QSC - 51 faiz; “Botaş” - 30 faiz; BP şirkəti - 12 faiz; nəhayət, “SOCAR Türkey Enerji A.Ş.” (STEAŞ) - 7 faiz.

Kəmərin Əskişəhərədək olan ərazidə (1350 km) diametri 56 düym, Yunanıstan sərhədinə qədər hissədə (480 km) 48 düym, Mərmərə dənizindən keçən hissədə isə 38 düymdür. Dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metrdir.

İnşaat işlərinin qrafikə uyğun aparılması nəticəsində boru xəttinin birinci fazası 2018-ci ilin 12 iyun tarixində istifadəyə verilib. Bu münasibətlə Əskişəhərdə keçirilən açılış mərasimində Azərbaycan və Türkiyə ilə yanaşı, Ukrayna, Serbiya və Şimali Kipr Türk Cümhuriyyətinin prezidentləri iştirak etmişlər.

İyun ayının 30-dan etibarən isə Türkiyəyə kommersiya məqsədilə ilk qazın ötürülməsinə başlanılıb.

TANAP layihəsinin icrasıyla bağlı yekun investisiya qərarı veriləndə ümumi xərclər 11,7 milyard dollar həcmində müəyyənləşdirilmişdi. Lakin icra prosesi zamanı satınalma əməliyyatlarının vaxtında həyata keçirilməsi və idarəolunma işlərində səmərəliliyin maksimum təmin edilməsi nəticəsində layihə təxminən 7 milyard dollardan aşağı məbləğə tamamlanmaqla ümumi vəsaitin 45 faiz azaldılmasına nail olunmuşdur.

TANAP, eyni zamanda, tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru xətti kimi daxil olmuşdur.

İnşaat işləri zamanı ictimaiyyətin mənafeyi nəzərə alınmaqla və ətraf mühitin mühafizəsi ilə əlaqədar 1000-ə yaxın sosialyönümlü və təbiətin qorunmasına aid tədbir həyata keçirilmiş, kəmərin keyfiyyəti, ekoloji şəraitin korlanmaması və əməyin təhlükəsizliyi üzrə beynəlxalq miqyasda nümunəvi sayılacaq göstəricilər əldə edilmişdir.

Azərbaycan Trans-Anadolu boru kəmərinin çəkilişi ilə bu gün bütün dünyaya bir daha göstərmişdir ki, nəinki ölkə daxilində, həm də xarici ölkələrdə mürəkkəb transmilli layihələri vaxtında və yüksək səmərə ilə yerinə yetirməyə qadirdir.

## Rəylər, düşüncələr...

Trans-Anadolu qaz boru xəttinin tam istifadəyə verilməsi beynəlxalq aləmdə geniş əks-səda doğurub. Dövlət rəhbərləri, ictimai xadimlər, politoloqlar, iqtisadçı ekspertlər region ölkələrinin iqtisadi və siyasi həyatına bu kəmər (eləcə də bütövlükdə CQD) vasitəsilə nəql olunacaq mavi yanacağın gətirəcəyi yeniliklərdən, xalqların rifah halının yaxşılaşmasına verəcəyi töhfələrdən, sabitliyin möhkəmlənməsi, qarşılıqlı əməkdaşlığın genişlənməsinə göstərəcəyi təsirdən söz açırlar. Onlardan bəzilərinin fikirləri ilə tanış olmaq yerinə düşər.

Saltuk Düzyol - TANAP-ın baş direktoru:

“TANAP-la Azərbaycan Avropanın yeni qaz tədarükçüsü olmaq hədəfinə çatdı. Bununla da Azərbaycan, eyni zamanda, Türkiyənin də ikinci qaz tədarükçüsü oldu. Türkiyə artıq uzun illərdir qaz ehtiyacını Rusiya və İran qazı ilə qarşılayırdı. Burada Azərbaycan üçüncü tədarükçü idi. Lakin Azərbaycan Türkiyənin qaz ehtiyacını qarşılayan ikinci böyük dövlətə çevrildi”.

Murat Lekompte - “SOCAR Turkey Enerji A.Ş.”nin (STEAŞ) departament rəhbəri:

“Dünyada bu növ nəhəng layihələrin nəzərdə tutulan vaxtda tamamlanması az görünən hadisədir. Eyni zamanda, layihənin nəzərdə tutulan məbləğdən daha az vəsaitlə başa çatması da təqdirəlayiq haldır”.

Aleksandr Qrximenko - Ukrayna Analitik Mərkəzinin rəhbəri:

“TANAP qaz layihəsi alternativlik yaratdığından Avropa ölkələrinin enerji təhlükəsizliyinə ciddi töhfə verəcək. TANAP-ın işə düşməsi Avropa ölkələrinin Azərbaycan qazını alması üçün əlverişli imkan yaradacaq”.

Professor Həsən Əli Karasar - Türkiyə Kapadokiya Universitetinin rektoru:

“Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) əsrimizin ən böyük enerji və nəqletmə layihələri sırasında yer alır... TANAP Avropanın enerji təhlükəsizliyinə əlli illik zəmanət verən boru xəttidir. Bütövlükdə Avrasiya üçün dinamik inkişaf vəd edən bu boru kəmərinin strateji gücü qaz ixrac və idxal edən ölkələr üçün eyni əhəmiyyətlidir. Bu xəttin tam fəaliyyətə başlaması Qara dəniz bölgəsindəki bütün tərəflər üçün cəlbedicidir”.

Hikmət Erən - Türkiyədə fəaliyyət göstərən EkoAvrasiya Dərnəyinin sədri:

“TANAP ideyasının ortaya çıxması və hazırkı vəziyyəti, sözün əsl mənasında, Azərbaycan və Türkiyə xalqları üçün bəxtiyarlıqdır. Türkiyə tarixdə ilk dəfədir ki, özünün təbii qaz tələbatını indiki qədər rahat yolla və təhlükəsiz qaydada təmin edir. Təchizat bütün parametrlər üzrə təhlükəsizlik deməkdir”.

## Gələcək uğurlu layihələrə açılan qapı

Cənub-şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayacaq “Cənub Qaz Dəhlizi”nin uğurla icra edildiyini və bu il bütünlüklə istifadəyə veriləcəyini görən digər dövlətlər də artıq bu transmilli boru kəmərindən bəhrələnmək barədə düşünməyə başlayıblar. Bəzi ölkələr Azərbaycanla əməkdaşlıq etmək niyyətlərini irəli sürürlər.

AZƏRTAC-ın verdiyi məlumata görə, Serbiya Azərbaycan qazını 2023-cü ildən Bolqarıstan vasitəsilə almağı nəzərdə tutur. Bu məqsədlə hələ 2018-ci ilin may ayında iki ölkə arasında qaz xəttinin çəkilməsi barədə müvafiq saziş imzalanıb. Razılaşmaya əsasən, inşaat işləri 2022-ci ildə başa çatdırılacaq və növbəti ildən Azərbaycan qazının idxalına başlanılacaq.

Serbiyanın Enerji naziri Aleksandr Antik Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməzlə Belqradda görüşü zamanı CQD-nin Cənub-şərqi Avropada enerjinin şaxələndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Qaz idxalından, həm də əsasən bir ölkədən asılı olan və öz enerji təminatının diversifikasiyasına nail olmağı düşünən ölkələrdən biri də Bolqarıstandır. Ötən ilin ortalarında, daha dəqiqi, may ayının 22-də ölkənin cənubundakı Kirkovo kəndi yaxınlığında Bolqarıstan-Yunanıstan interkorrektorunun (birləşdirici kəmər) təməlqoyma mərasimi keçirilib. Mərasimdə çıxış edən Bolqarıstan hökumətinin rəhbəri bildirib ki, layihə təkcə iki ölkə üçün deyil, bütövlükdə Şərqi Avropa üçün strateji əhəmiyyətə malikdir. Yunanıstan hökumətinin başçısı isə interkorrektorun Balkan ölkələri üçün bir enerji təminatçısı rolunu oynayacağını qeyd edib.

Neft-qaz məsələləri üzrə ekspert İ.Şabanın bildirdiyinə görə, kəmərin buraxıcılıq gücü 1-3 milyard kubmetr arasında olacaq. Onun da 1 milyard kubmetri Bolqarıstana nəql ediləcək.

Göründüyü kimi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrikliklə həyata keçirdiyi nəhəng transmilli layihələr Avropanın enerji təhlükəsizliyi xəritəsini dəyişməklə özünə yeni aktorlar cəlb etməkdədir.

**Səfər MAHMUDZADƏ,**
**“Respublika”.**

**P.S.**

*AZƏRTAC-ın yaydığı bir məlumatda deyilir:*

*“TANAP ətraf mühitin qorunması və davamlılıq sahəsində ən müvəffəqiyyətli layihələri qiymətləndirən və mərkəzi ofisi Böyük Britaniyada yerləşən “The Green Organisation” tərəfindən “Dünya lideri” və “Yaşıl dünya səfiri” mükafatlarına layiq görülüb. Mükafatlar Birləşmiş Krallıqda keçirilən mərasimdə TANAP-ın baş direktoru Saltuk Düzyola təqdim edilib”.*